# <u>*TBMM-in sabiq deputatı:*</u> "Azərbaycan qlobal nəqliyyat şəbəkəsinin mərkəzinə çevriləcək"

"Avqustun 8-də ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan və Ermənistan arasında imzalanacaq sülh sazişi paraflandı. Beynəlxalq münaqişələrin və böhranların intensivləşdiyi bir vaxtda sülh naminə atılan bu addım bölgənin sabitliyi üçün çox önəmlidir. Bu müqavilənin Azərbaycan üçün vacib olan əsas məqamları bölgədə davamlı sülhün təmini, bu istiqamətdə verilən vədlərin tutulmasıdır. Burada ilk müsbət addım ABŞ tərəfindən Azərbaycana haqsız olaraq tətbiq edilən 907-ci düzəlişin ləğvidir. Müqavilənin ən kritik maddəsi isə Azərbaycanın qərb hissəsini Naxçıvan üzərindən Türkiyəyə bağlayacaq Zəngəzur dəhlizinin gələcəyidir. Bu dəhlizin fəaliyyətə keçməsi Orta dəhliz kimi tanınan tarixi İpək yolunun əhəmiyyətini daha da artıracaq".

Bunu AZƏRTAC-a açıqlamasında Türkiyə Böyük Millət Məclisinin (TBMM) sabiq deputatı Yavuz Subaşı bildirib.

Vaxt keçdikcə Azərbaycanın Asiya ilə Avropa arasında qlobal nəqliyyat şəbəkəsinin mərkəzi ölkəsinə çevriləcəyini ifadə edən sabiq deputat deyib: "Sülhün və əmin-amanlığın hökm sürdüyü Cənubi Qafqaz həm regional, həm də qlobal strateji mərkəz olacaq ki, bunun da əsas təməli rəsmi Bakıdır. Təkrar qeyd etmək istəyirəm ki, burada ən vacib məsələ Ermənistanın verdiyi sözlərə sadiq qalması və razılaşmalara uyğun hərəkət etməsidir. Vaşinqtonda imzalanan bəyannamə ilə ATƏT-in Minsk qrupu da etibarsız hala gəldi. Ermənistanın Qarabağı işğal etməsindən sonra bu məsələsinin həlli üçün yaradılmış bu qurumun faydasızlığı hər birimizə bəllidir. Azərbaycan özü Qarabağı işğalından azad etdi. Vaşinqton Zirvəsində imzalanan Birgə Bəyannamə ilə bu qrupun funksiyası da aradan qaldırıldı".

Yavuz Subaşı bildirib ki, Türkiyə hər zaman və hər şəraitdə Azərbaycanın mənafeyinə uyğun olan hər addımı dəstəkləyib və bundan sonra da dəstəkləməyə davam edəcək: "Arzu edirəm ki, bu müqavilə Azərbaycanın inkişafı və güclənməsinə, həm qlobal, həm də regional güc kimi yoluna davam etməsinə töhfə versin".

Azərbaycan.- 2025.- 12 avqust (№167).- S.7.